**“Dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1381) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddədə hər iki halda “6 263 970 000,0” rəqəmləri “6 267 970 000,0” rəqəmləri ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 2.4-cü maddə əlavə edilsin:

| | | |
|---|---|---|
| 2.4. | Əvvəlki illərdə dövlət sosial müdafiə fondunun istifadə olunmamış vəsaitindən cari ilin xərclərinə yönəldilən məbləğ | 4 000 000,0 |

3. 3-cü maddə üzrə:

3.1. 3.1.2.3-cü maddədə “28 000 000,0” rəqəmləri “32 000 000,0” rəqəmləri ilə əvəz edilsin;

3.2. 3.1.2.5-ci maddədə “41 000 000,0” rəqəmləri “37 000 000,0” rəqəmləri ilə əvəz edilsin;

3.3. 3.4-cü maddədə “102 700 000,0” rəqəmləri “106 700 000,0” rəqəmləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 iyun 2023-cü il
№ 918-VIQD